## Hüquq məsləhətxanamız

***Samirə Musayeva***
Azərbaycan Respublikası Vergilər Nazirliyinin Hüquq idarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir.

### Əmlak vergisi üzrə güzəştlər

***İkinci qrup müharibə əlilinin mülkiyyətində olan və sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə edilən əmlaka görə üdənilməli əmlak vergisi üzrə hansı güzəştlər tətbiq edilir?***

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (VM) 196-cı maddəsinə əsasən, VM-in 197-ci maddəsində göstərilən vergitutma obyektləri olan fiziki şəxslər və müəssisələr əmlak vergisinin ödəyiciləridir. VM-in 197.1-ci maddəsində müəyyən edilmişdir ki, rezident və qeyri-rezident fiziki şəxslərin xüsusi mülkiyyətində olan və Azərbaycan Respublikasının ərazisində yerləşən tikililərin və ya onların hissələrinin (bundan sonra bina adlandırılacaq), həmçinin yerindən və istifadə edilib-edilməməsindən asılı olmayaraq rezident fiziki şəxslərə məxsus su və hava nəqliyyatı vasitələri əmlak vergisi üzrə vergitutma obyektlərini təşkil edirlər.

VM-in 199.3-cü maddəsinə əsasən, binaların icarəyə, kirayəyə verildiyi, habelə sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün istifadə edildiyi hallar istisna olmaqla VM-in 102.2-ci maddəsində göstərilən şəxslərin, habelə pensiyaçıların və müddətli hərbi xidmət hərbi qulluqçularının və onların ailə üzvlərinin müddətli hərbi xidmət dövründə binalara görə ödəməli olduqları əmlak vergisininin məbləği 30 manat azaldılır. VM-in 102.2.4-cü maddəsində qeyd edilən və güzəşt tətbiq edilən şəxslərdən biri də ikinci qrup müharibə əlilləridir. Lakin VM-in 199.3-cü maddəsinin mətnindən göründüyü kimi, həmin güzəşt binaların yalnız qeyri-kommersiya məqsədləri üçün istifadəsi zamanı tətbiq edilir.

Qeyd edilənlərlə əlaqədar bildiririk ki, ikinci qrup müharibə əlilinin mülkiyyətində olan və sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə edilən əmlaka görə ödənilməli əmlak vergisi üzrə hər hansı güzəşt tətbiq edilmir.